**İQTİSADİ ELMLƏR**

**UOT 339.1**

# ÖLKƏMİZİN TRANZİT POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ VƏ ONUN TİCARƏT LOGİSTİKA İNFRASTRUKTURUNUN YAXŞILAŞDIRILMASINDA LOGİSTİKANIN OYNADIĞI ROL

**Nəsimi NOVRUZOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 20 avqust 2023; çapa qəbul edilmişdir: 1 sentyabr 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 20th of August, 2023; accepted: 1th of September, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *tranzit potensialı, iqtisadi inkişaf, logistika, xarici ticarət, logistika infrastrukturu*

## Giriş

Müasir dünyada qlobal ticarətin həcminin artım dinamikası ölkənin iqtisadiyyatına müsbət təsir göstərməklə bərabər olaraq satışları artırır, iş dünyasını stimullaşdırır və tarazlaşdırır. Güclü logistika sektorunun olması iqtisadi və siyasi çərçivədə ölkənin söz sahibi olmasında da mühüm rol oynayır. Əlverişli coğrafi mövqe və Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb kimi nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi, eyni zamanda respublikamızda həyata keçirilən nəqliyyat infrastrukturuna dair proqramlar və bu kimi layihə və tədbirlər ölkəmizin tranzit potensialının artması yolunda müsbət rol oynayır. Logistika siyasətinin, bu sahəyə dair davamlı dövlət layihə və tədbirlərinin görülməsi ölkə iqtisadiyyatımızın davamlılığını artırmaqla onun sabitliyini təmin etməklə, iqtisadi inkişaf göstəricilərinin artmasında müsbət rola malik olur.

Bu məqalədə araşdırılan və təhlil olunan əsas problemlərdən biri, əsasən, ölkəmizin tranzit potensialının gücləndirilməsi və onun tranzit potensialının yaxşılaşdırılmasında Azərbaycanın əlverişli geo-iqtisadi məkanda yerləşməsi və bu əlverişli geo-iqtisadi yerləşmə mövqeyinin təsiri kimi imkanları nəzərdən keçirilmişdir. Paralel olaraq, ölkəmizin ticarət logistika infrastrukturunun da müsbətə doğru yaxşılaşdırılmasında logistikanın oynadığı rol qiymətləndirilməkdədir.[††]

Bundan savayı, ticarət logistika infrastrukturunun inkişaf etdirilməsində texnoloji yeniliklərin bu sahə üzrə tətbiqinin vacibliyi qeyd olunmuşdur. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində nəqliyyat sahəsinin inkişafı məsələsi başlıca əsas tendensiyalardan biri hesab olunmuşdur. Ölkəmizin dayanıqlı inkişafı yolunda nəqliyyat infrastrukturunun tranzit potensialımızın artırılması və gücləndirilməsindəki əhəmiyyətinə toxunulmuşdur.

Azərbaycan Respublikasının regionda tranzit potensialının gücləndirilməsi üçün logistikanın iqtisadi səmərəliliyinin artırılması istiqamətlərinə dair dövlətin strateji məqsəd və hədəflərinə istinadlar olunmuşdur. Respublikamızın beynəlxalq tranzit ticarətinə daha da inteqrasiyası prosesində onun əlverişli geo-iqtisadi coğrafi mövqeyinin yaratdığı müsbət imkanlar və eyni zamanda isə logistika sahəsinin ölkəmizin inkişafında xüsusi rol oynaması və bu sahə üzrə stratejik hədəflərin müəyyənləşdirilməsi kimi digər amillər nəzərdən keçirilmişdir.

* *doktorant, Bakı Avrasiya Universiteti*
*e-mail*: nsmnovruzov@gmail.com

Bildiyimiz kimi, bütün ölkələrin inkişaf səviyyəsi əsasən onların iqtisadi göstəricilərindəki rəqəmlərə əsasən qiymətləndirilməkdədir. İqtisadi göstəriciləri daim müsbətdə olan ölkələrin həm iqtisadi, həm sosial, həm mənəvi, həm psixoloji, həm də mədəni quruluşuna bu göstəricilərin müsbət təsirinin artım dinamikası sezilir daima. Ölkənin iqtisadi göstəricilərinin artım dinamikası onun insanlarının sosial rifahını, onun cəmiyyətindəki fərdlərinin mədəniyyətini, həyat səviyyələrini və yaşayış səviyyəsinin artımını müsbətə doğru dəyişimində böyük rol oynayan faktorlardan biridir. Bu iqtisadi göstəricilərində yaxşılaşması üçün ölkənin logistika sektoru daim inkişaf etdirilməli olan amillər arasında yer almaqdadır [1].

Logistikanın əhəmiyyətini artıran amillərdən digəri də, son illərdə xüsusilə iqtisadi inkişaf tempi yüksək olan ölkələrin xarici ticarət meyllərində artımın olması və zamanın tələblərinə uyğun olaraq kompleks mürəkkəb ticari əlaqələrin aparılması kimi etdiyi əməliyyatlardır. Davamlı daxili və xarici ticarət əlaqələrinin aparılması üçün bir sistem olmasa ölkələr iqtisadi fəaliyyətlərini davam etdirə bilməz. Bu səbəbdən də logistika sisteminin əhəmiyyəti, onun ölkənin tranzit potensialının artırılmasında, tranzit logistika ticarət əlaqələrinin aparılmasında oynadığı rolu olduqca vacib amildir [2].

## Əlverişli coğrafi iqtisadi mövqe və bu mövqenin ölkənin logistika potensialının artmasında rolu

Siyasi, iqtisadi, sosial, strateji, mədəni və hərbi sahələrdə əsas gəlir gətirən amil məhz ölkənin güclü logistika sektorunun formalaşmasıyla baş verən bir prosesdir. Güclü logistika sektorunun olması iqtisadi siyasi çərçivədə ölkənin söz sahibi olmasında da mühüm rol oynayır. Milli və beynəlxalq iqtisadi həcmin, məşğulluq səviyyəsinin, ölkəyə gələn xarici kapital həcminin, insanların alıcılıq qabiliyyətinin, sosial rifahının, ölkənin vergi və milli gəlirlərinin, iqtisadi inkişaf göstəricilərinin tendensiyasındakı artımın özəyində bu sahənin inkişaf etdirilməsi durur əsas amil kimi.

Ölkəmizin beynəlxalq nəqliyyat qovşağına çevrilməsi siyasəti dövlətin müstəqillik əldə etməsindən bəri xarici iqtisadi və geo-siyasi əlaqələr sahəsində həyata keçirdiyi 2 əsas strateji xətdən biri olmuşdur. Mütəxəssislər bu prosesdə Azərbaycanın fəaliyyətində müşahidə edilən bəzi vacib nüansları xüsusi vurğulayırlar. Bu nüanslar:

1. Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi, ticari, nəqliyyat və logistika əlaqələrinin yaxşılaşdırılmasından;
2. Çinlə Avropa İttifaqı arasında ən qısa quru yolu üzərində qurulan multimodal dəhlizin inkişafından;
3. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılmasından;
4. Böyük İpək Yolu çərçivəsində tranzit yüklərin daşınmasının cəlbindən;
5. Logistika və ticarət infrastrukturunun önəmli şəkildə yaxşılaşdırılması və tənzimləyici stimullar vasitəsilə regionda bu sahədə Azərbaycanın daha cəlbedici qovşaq olmasından;
6. Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və TransAvrasiya Super İnformasiya Magistralı (TASİM) layihələri vasitəsi ilə Böyük İpək Yolunun rəqəmsallaşdırılmasından;
7. Fərqli nəqliyyat sahələri arasındakı əlaqələrin idarə edilməsi prosesindən;
8. Mal, yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflərə uyğunlaşdırılan dövlət siyasətinin aparılmasından;
9. Çox yönlü daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət mexanizminin işlənib formalaşdırılmasından və i.a. təşkil edilmişdir.

Müstəqil ölkəmiz dünyada geosiyasi və geoiqtisadi əhəmiyyətinə görə fərqlənən

transmilli layihələr reallaşdıran ölkə kimi uğur qazanmışdır. Ölkəmiz tək Cənubi Qafqaz bölgəsini deyil, ümumilikdə, böyük coğrafiyanı əhatələyən, hətta Avrasiya geosiyasi məkanda təhlükəsizlik və əməkdaşlıq münasibətlərinə bəhrəsini verməklə diqqəti cəlb edir. Avrasiya məkanının önəmli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilən ölkəmizin, tranzit potensialının artması qeyri-neft sektorunun yaxşılaşmasına öz təsirini etməkdədir. Hal-hazırkı dövrdə Azərbaycan etibarlı tranzit ölkələrdən birinə çevrilib.

Əlbəttə ki, hər hansı bir ölkənin tranzit potensialının inkişafında qonşuluğundakı dövlətlər ilə münasibətləri əhəmiyyət daşıyan məsələlərdən biridir. Gələcəyə hesablanmış layihə olan Bakı-Tiblisi-Qars dəmir yolu regionda sülhün və təhlükəsizliyin bərkidilməsinə töhfə verərək növbəti dəfə bütün dünyaya mesaj oldu ki, ölkəmizin təşəbbüsü ilə qlobal önəm daşıyan  layihələr gerçəkləşdirilir.

Məhsulunun bir nöqtədən digər nöqtəyə çatdırılmasında, onun anbarlarda saxlanılmasında, bütün bu kimi işlərin planlı, strategiyalı, çevik və sürətli həyata keçirilməsində oynadığı rolun əhəmiyyəti olduqca böyükdür logistika sahəsinin.

Məhsul və əmtəənin, xidmətlərin müştəri tələbatını ödəmək üçün hər hansı başlanğıc nöqtəsindən istehlak nöqtəsinə kimi idarə edilmə prosesinə logistika deyilir. Daşınmaların həyata keçirilməsi, anbar, nəqliyyat, xidmət, materialların komplektləşdirilməsi və hərəkətinin təhlükəsizliyinin həyata keçirilməsi kimi digər əhəmiyyətli məsələlərdə logistika anlayışına daxil olan əsas nüanslardan biridir. Bununla yanaşı, logistika eyni zamanda da məhsul sıradan çıxdıqda onun məhv edilməsi kimi məsələlər ilə də məşğul olan bir sahə olaraq formalaşmışdır [3].

Ölkəmizin qarşısında duran iqtisadi hədəflərə nail olmaq üçün son illərdə Azərbaycanın tranzit-logistik potensialının inkişafında bu sahənin oynadığı rolun əhəmiyyəti hər keçən gün artmaqdadır. Əlverişli coğrafi mövqe və Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb kimi nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi, eyni zamanda Respublikamızda həyata keçirilən nəqliyyat infrastrukturuna dair proqramlar və bu kimi layihə və tədbirlər ölkəmizin tranzit potensialn artırılması yolunda müsbət rol oynayır. Bu da öz növbəsində ölkəmizin tranzit potensialının inkişaf etdirilməsində logistikanı önə çəkən əsas amillərdən sayılır [4].

Azərbaycan  2020 gələcəyə baxış "İnkişaf" konsepsiyasında da qeyd olunmuşdur ki, ölkəmizin coğrafi mövqeyindən istifadə etməklə Azərbaycanı regionumuzun əsas ticarət mərkəzinə çevirmək və tranzit, nəqliyyat xidmətlərinin inkişafı naminə Respublikamızın bölgə və regionlarında logistik mərkəzlərin yaradılması qarşıya qoyulan məqsədlərdəndir. Bu kimi tədbirlər hamısı investisiya və istehsal mərkəzi kimi Respublikamızın cəlbediciliyinin artması üçün və biznes, məşğulluq imkanlarının yaxşılaşdırılması üçün əlverişli imkanlar açır. Ölkənin iqtisadi inkişaf imkanlarının artması və eyni zamanda da beynəlxalq ticarətdə etibarlı mövqe qazanması üçün bu konsepsiyada qeyd olunan məsələlərin həllini tapması vacibdir [5].

İpək yolu kimi geniş iqtisadi layihələrin həyata keçirilməsi iqtisadi artımın yüksəlməsində mühüm rol oynayır. Eyni zamanda, qeyri neft sektorunun xüsusi çəkisinin artması üçün nəqliyyat dəhlizlərinin potensialından maksimum səmərəli istifadə etmək lazımdır. Azərbaycanın tranzit potensialının gücləndirilməsində uğurlu siyasət nəticəsində Respublikamızda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi əhəmiyyətli rol oynayır. Gələcəkdə texnoloji tərəqqidən geri qalmamaq üçün kadr potensialı hazırlanmalı və ölkəmizə texnoloji yeniliklər gətirilməlidir. Bütün bunlar Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində və tranzit potensialının gücləndirilməsi perspektivlərini artırır.

Ölkəmizin qloballaşma şəraitində qarşısına qoyduğu məqsədlərdən biri respublikamızın dayanıqlı inkişafı yolunda tranzit və nəqliyyat potensialının artırılması imkanlarının həyata keçirilməsi məsələlərinə nail olunmasıdır. Qloballaşan dünyada qeyri-neft sektorunun həcminin ÜDM-də yerinin artması və daha çox pay sahəsi tutması qeyri-neft

sektorunun digər sahələrlə qarşılıqlı şəkildə inteqrasiya proseslərinin olmasına zəmin yaradır. Müasir zamanın tələblərinə uyğun olaraq bu gün ölkəmiz kompleks tədbirlər keçirdir ki, nəqliyyat sektorunun imkanlarını genişləndirməklə artırılmasına nail ola bilsin. Bunun üçün də dövlətimiz milli iqtisadiyyatımızın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi yolunda bütün imkanlarından yararlanmağa çalışır və həm regional, həm də beynəlxalq səviyyədə qarşılıqlı əməkdaşlıq imkanlarından faydalanmağa çalışır.

Coğrafi mövqenin əlverişliliyi kimi imkanları sayəsində ölkəmiz artıq Cənubi Qafqaz regiounda əhəmiyyətli nəqliyyat dəhlizləri və qovşaqlarının keçdiyi yerə çevrilmişdir. Bütün bu kimi amillər hamısı ölkəmizin region üzrə tranzit potensialının artması imkanlarına müsbət perspektivlər yaratmışdır. Bu tədbirlər hamısı ölkə prezidentinın məqsədyönlü siyasətinin nəticəsi olaraq baş verməkdədir. Dövlət başçımızın dəstəyi sayəsində bütün növ nəqliyyat infrastrukturunun və parklarının yenilənməsi, Respublikamızın nəqliyyat tranzit potensialının artırılması, nəqliyyat xidmətlərinin səmərəli həyata keçirilməsinə yönəlik tədbirlər keçirilməkdədir.

**Logistika potensialının artırılmasında rol oynayan amillər**

Ölkə iqtisadiyyatında inkişafa səbəb açan digər amil Bakı-Tbilisi-Qars və Şimal Cənub beynəlxalq və regional nəqliyyat dəhlizlərinin reallığa çevrilməsi hadisəsidir. Ölkəmiz hal-hazırda həm quru, həm su, həm də hava nəqliyyatı kanalları vasitəsilə bütün dünyaya çıxış imkanlarına malikdir. Buda özlüyündə idxal ixrac əməliyyatlarının və beynəlxalq iqtisadi əlaqələrin aparılmasında əlverişli yollar açır. Xarici iş adamlarının Respublikamızın iqtisadiyyatına sərmayə yatırmasında müsbət rol oynayan amillərdən biri elə ölkə daxili nəqliyyat infrastrukturunun müasir dünya tələbi standartlarına uyğunlaşdırılmasıdır. Avropa və Asiya eyni zamanda ölkəmiz üçün böyük önəm daşıyan beynəlxalq layihə qədim tarixə malik olan İpək yolunun bərpasıdır. Avropa, Asiya və Qafqaz arasında dəhliz rolu oynayan Traseka layihəsinin keçdiyi ölkələr arasında ölkəmizin seçilən yeri və potensialı olduqca böyükdür tranzit əlaqələrinin aparılması baxımından.

Ölkəmiz hava nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi, hava limanlarının ən üst səviyyəyə gətirilməsi üçün, eyni zamanda da hava məkanından istifadənin müstəqilləşdirilməsi yolunda davamlı tədbirlər görür. Heydər Əliyev Beynəlxalq Aeroportu yükdaşımalarının və yük terminalının buraxılış həcmi baxımından regionun ən nəhəng aeroportudur. 2023-cü ilin beş ayında Azərbaycanda hava nəqliyyatı ilə 25 min 255 ton yük daşınıb ki, bu yüklərin dəyəri 600 milyon 165 min dollar olub.

İşğaldan azad edilmiş ərazilərdə tikilən hava limanları Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyasından əlavə ölkəmizin hava nəqliyyatı ilə yükdaşımalardakı rolunu da artıracaq. Azad olunmuş ərazilərdə inşa edilən ilk hava limanı – Füzuli Beynəlxalq Aeroportu Qarabağ iqtisadiyyatının region bazarları üzrə şaxələnməsinə xüsusi töhfə verəcək. Bu hava limanı yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılacaq hava limanı, həm də həmin yerlərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir.

Son dövrlərdə baş verən müsbət dəyişikliklər Azərbaycanda tranzit imkanların yaxşılaşdırılması yönündə qarşıda dayanan vəzifələrin uğurla həyata keçirilməsini deməyə əsas verir. Keçən vaxtlar ərzində tranzit potensialının gücləndirilməsi yönündə bir neçə irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə irihəcmli investisiyalar yönəldilib. Paytaxtda, eləcə də respublikanın bölgələrində beynəlxalq hava limanlarının, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri boyunca beynəlxalq önəm daşıyan avtomobil yollarının tikintisi, dəmir yolu xətlərinin yenilənməsi ölkənin xarici iqtisadi əlaqələrinin artmasında

əhəmiyyətli rol oynayır. Ən vacibi, bunlar Azərbaycanın tranzit potensial gücü və tranzit daşımalarında iştirak imkanlarını artırır. Başqa yöndən, İpək Yolu üzərində geniş iqtisadi zolağın formalaşdırılmasının fəal dəstəkçisi olan dövlətimiz digər dəhlizlərlə müqayisədə yüklərin Azərbaycan ərazisindən keçməklə fərqli istiqamətlərə tranzit daşımalarının əlverişli təşkil olunmasına etibarlı təminat verir, daha münbit şərtlərlə qısa zaman kəsiyində, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımalarının həcminin bir neçə dəfələrlə yüksəlməsinə səbəb olur.

Geri qalan dövrlər içərisində həyata keçirilən beynəlxalq layihələr ölkəmizin regionun logistika sahəsində liderlik yerini möhkəmləndirir. Ölkəmizin beynəlxalq tranzit dövlət kimi nüfuzu və önəmi fasiləsiz olaraq yüksəlir.

Logistika sahəsində aparılan önəmli layihələr Rusiya, İran, Türkiyə və digər bizimlə əlaqəli olan logistika sektoruna aid əməliyyatlarını ölkəmiz üzərindən aparan digər ölkələrin də ərzaq, enerji təhlükəsizliyi üçün böyük əhəmiyyət daşıyır.

Son dövrlər ərzində ticari əlaqələrin genişlənməsi logistikanın əhəmiyyətini qiymətləndirilməsini ölkəmizin tranzit potensialının gücləndirilməsində oyandığı rolun əhəmiyyətinin qiymətləndirilməsi vacibləşdirmişdir. Ölkəmiz bu proses sayəsində logistika sahəsində strategiyalarını, hədəflərini müəyyənləşdirmiş, logistikanın əhəmiyyətinin vacibliyini daha da qiymətləndirilməsinə önəm verməyə başlamışdır.

**Nəticə**

Nəticə olaraq logistika sahəsinin inkişafı ilə, logistik infrastrukturun yaxşılaşdırılmasıyla respublikamızın xarici ticarəti artmış, tranzit potensialı, demək olar ki, nəzərə çarpacaq dərəcədə canlanmışdır və təkmilləşmişdir. İstehsal və istehlak prosesində yol nəqliyyatından istifadə edən müəssisə və firmalar üçün nəqliyyat infrastruktru problemlərinin həllinə yönəlik tədbirlər günü gündən artmağa doğru gedir.

Eyni zamanda, bu kimi problemlərin həllində müasir informasiya texnologiyalarının imkanlarından yararlanmaya yönəlik meyllər artmaqdadır. İnkişaf etmiş ölkələr logistika sektorunun önəmini dərk edir və logistika sektorunun səmərəli inkişafı üçün lazımi addımlar atır.

Bundan sonra da Azərbaycanın mövqe baxımından yerləşmə regionundan istifadə edərək, tranzit ölkə olaraq mövcud müsbət imkanlarından yararlanaraq nəqliyyat sahəsində yükdaşımalarda rəqabətqabiliyyətinin artırılması və nəqliyyat xidmətlərinin ixracı məsələlərində inkişaf göstəricilərinin yaxşılaşması bu sahə üzrə davamlı olaraq əhəmiyyətli layihələrin və logistika sahəsinin daha da təkmilləşdirilməsi ilə tərəqqi edəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycanın statistik göstəriciləri, AR DSK. Rəsmi nəşr. “Narıncı Nəşriyyat Evi” MMC, 2022, 747 s.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycanın statistika göstəriciləri, Bakı, 2019, 779 s.
3. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
4. Azərbaycanın Xarici Ticarəti. Bakı, DSK, 2020, 218 s.
5. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İnformasiya iqtisadiyyatı sektorlarının və innovativ strukturlarının inkişafına dördüncü sənaye inqilabının təsirinin analizi // İnformasiya cəmiyyəti problemləri, 2018, №2, s. 52–64.

***Резюме***

***Насими Новрузов***

***Роль логистики в укреплении транзитного потенциала нашей страны и совершенствовании ее торгово-логистической инфраструктуры***

В современном мире динамика роста объемов мировой торговли, оказывая положительное влияние на экономику страны, увеличивает объемы продаж, стимулирует и уравновешивает деловой мир. Наличие сильного логистического сектора также играет важную роль в голосе страны в экономической и политической сфере. Выгодное географическое положение и расположение Азербайджана на пересечении таких транспортных коридоров, как Север-Юг, Восток-Запад, и в то же время реализуемые в нашей республике программы по транспортной инфраструктуре и аналогичные проекты и меры играют положительную роль в увеличении транзита. потенциал нашей страны.

Реализация логистической политики, устойчивых государственных проектов и мер в этой сфере играет положительную роль в повышении показателей экономического развития за счет повышения устойчивости экономики нашей страны и обеспечения ее стабильности.

Одним из основных факторов, исследованных и проанализированных в данной статье, в основном считаются возможности усиления транзитного потенциала нашей страны и улучшения ее транзитного потенциала, расположение Азербайджана в благоприятном геоэкономическом положении и влияние этого благоприятного геоэко- номического положения. положение местоположения. При этом оценивается роль логистики в положительном совершенствовании торгово-логистической инфраструктуры нашей страны.

Кроме того, была отмечена важность применения технологических инноваций в развитии торговой логистической инфраструктуры в данной сфере. Одним из основных направлений считался вопрос развития транспортного комплекса в направлении диверсификации экономики. Была затронута важность транспортной инфраструктуры в увеличении и укреплении нашего транзитного потенциала на пути к устойчивому развитию нашей страны. В целях усиления транзитного потенциала Азербайджанской Республики в регионе были упомянуты стратегические цели и задачи государства относительно направлений повышения экономической эффективности логистики.

В процессе дальнейшей интеграции нашей республики в международную транзитную торговлю положительные возможности, создаваемые ее выгодным геоэкономико-географическим положением и в то же время особой ролью логистической сферы в развитии нашей страны и определении стратегических рассматривались цели в этой области.

***Ключевые слова:*** *транзитный потенциал, экономическое развитие, логистика, внешняя торговля, логистическая инфраструктура*

***Summary***

***Nasimi Novruzov***

***The Role Played by Logistics in Strengthening the Transit Potential of our Country and İmproving its Trade Logistics İnfrastructure***

In the modern world, the dynamics of the growth of the volume of global trade, while having a positive effect on the country's economy, increases sales, stimulates and balances the business world. Having a strong logistics sector also plays an importantrole in the country's voice in the economic and political framework. Favorable geographical position and the location of Azerbaijan at the intersection of transport corridors such as North-South, East-West, and at the same time programs on transport infrastructure implemented in our Republic and similar projects and measures play a positive role in increasing the transit potential of our country.

Implementation of the logistics policy, sustainable state projects and measures in this area has a positive role in increasing economic development indicators by increasing the sustainability of our country's economy and ensuring its stability. One of the main factors researched and analyzed in this article is mainly considered the possibilities of strengthening the transit potential of our country and improving its transit potential, the location of Azerbaijan in a favorable geo-economic location and the effect of this favorable geo-economic location position. At the same time, the role played by logistics in the positive improvement of the trade logistics infrastructure of our country is being evaluated. In addition, the importance of the

application of technological innovations in the development of trade logistics infrastructure in this field was noted.

The issue of the development of the transport sector in the direction of diversification of the economy was considered one of the main main trends. The importance of transport infrastructure in increasing and strengthening our transit potential on the way to the sustainable development of our country was touched upon. In order to strengthen the transit potential of the Republic of Azerbaijan in the region, references were made to the strategic goals and objectives of the state regarding the directions of increasing the economic efficiency of logistics.

In the process of further integration of our republic into the international transit trade, the positive opportunities created by its favorable geo-economic geographical position and at the same time the special role of the logistics field in the development of our country and the determination of strategic goals in this field were considered.

***Key words:*** *transit potential, economic development, logistics, foreign trade, logistics infrastructure*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.